Xaqani küç., 21
AZ 1000, Bakı, Azərbaycan
Tel (+99412) 598 08 00
Faks (+99412) 598 08 80
E-mail info@bankrespublika.az
http://www.bankrespublika.az

***Səhmdarların Növbəti Ümumi Yığıncağının keçirilməsi haqqında bildiriş***

"Banklar haqqında" Azərbaycan Respublikası Qanunu və Azərbaycan Respublikasının Mülki Məcəlləsini rəhbər tutaraq "Bank Respublika" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyəti nəzərinizə çatdırır ki, 16 İyun 2026-cı il tarixdə saat 12:00-da, Bakı şəhəri, Xaqani küçəsi 21 ünvanında yerləşən bankın Baş Ofisində Səhmdarların Növbəti Ümumi Yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyinə aşağıdakı məsələlər daxildir:

1. İclasın sədrinin və katibinin təyin edilməsi.
2. İclasın gündəliyinin təsdiq edilməsi.
3. 2025-cü il üçün kənar audit yoxlamasının nəticələri haqqında.
4. "Bank Respublika" ASC-nin investisiya qiymətli kağızlarının emitenti olaraq 2025-cü il üzrə illik hesabatının təsdiq edilməsi haqqında.
5. "Bank Respublika" ASC-nin nizamnamə kapitalının artırılması haqqında.
6. "Bank Respublika" ASC-nin Nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi və Nizamnamənin yeni redaksiyada təsdiq edilməsi haqqında.
7. Bank Respublika ASC-nin Mükafatlandırma Siyasətinin təsdiq edilməsi haqqında.
8. Bank Respublika ASC-nin Müşahidə Şurasının əsasnaməsinin təsdiq edilməsi haqqında.

Qeyd edək ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən Siz Ümumi Yığıncaqda iştirak hüququnuzu bilavasitə özünüz və ya nümayəndəniz vasitəsilə həyata keçirə bilərsiniz.

Yığıncaqda özünüz iştirak edəcəyiniz halda, Siz qeydiyyat üçün şəxsiyyətinizi təsdiq edən sənədi təqdim etməlisiniz. Yığıncaqda nümayəndəniz iştirak edəcəksə, qeydiyyat üçün onun tərəfindən adına qanunvericilikdə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənəd təqdim edilməlidir.

Yığıncağın gündəliyinə çıxarılan məsələlər üzrə materiallarla 10.06.2026-cı il tarixdən 15.06.2026-cı il tarixədək, şənbə və bazar günləri istisna olmaqla, saat $10^{00}$-dan $12^{00}$-dək yuxarıda qeyd olunan ünvanda, şəxsiyyəti təsdiq edən sənədi təqdim etməklə tanış ola bilərsiniz. Nümayəndə tərəfindən əlavə olaraq qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənəd təqdim edilməlidir. Zərurət hiss edildiyi halda, bütün müvafiq materiallar eletron poçt vasitəsilə Sizə göndərilə bilər.

***Hörmətlə,***

Azərbaycan Respublikası Açıq Səhmdar Cəmiyyəti Bank Respublika Open Joint Stock Company

***Aslan Abasov***
***İdarə Heyətinin Sədrinin müavini***